**İanə müqaviləsi bağlamaq üçün**
**ictimai təklif**

Bu ictimai təklif ("Təklif") Azərbaycan Uşaq Fondunun (VOEN 1400108621, Üzeyir Hacıbəyli küç. 40) Təklifə cavab verən istənilən şəxslə Fondun nizamnamə məqsədləri üçün ianə müqaviləsi bağlamaq təklifidir.

1. Müqavilənin predmeti
İanə verən şəxs öz vəsaitini Azərbaycan Uşaq Fondunun cari tələbatlarının ödənilməsi üçün əvəzsiz şəkildə İanə alanın mülkiyyətinə verir və İanə alan həmin ianəni qəbul edir.

2. İanədən istifadə
İanə verən qeyd olunan əşyaları (pul vəsaitini) İanə alana təmənnasız şəkildə verir və onlardan istifadə üçün İanə alanın üzərinə hər hansı nəticəyə nail olmaq vəzifəsi qoymur. Bununla bərabər, İanə alan həmin əşyalardan (vəsaitdən) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə ictimai fayda kəsb edən məqsədlər üçün istifadə etməlidir.

3. Məxfilik Siyasəti
Fərdi məlumatların subyekti Fondun internet saytından istifadə edərək və müvafiq formaları dolduraraq, öz şəxsi məlumatlarını təqdim edərək, fərdi məlumatların emalına razılığını verir.
Azərbaycan Uşaq Fondunda fərdi məlumatların toplanması, emalı və qorunması prosedurlarının tənzimlənməsi Fondun Məxfilik Siyasəti olaraq həyata keçirilir.

4. Diqər şərtlər
İanə verən şəxs bu Təklifdə nəzərdə tutulmuş hərəkətləri yerinə yetirməklə Fondun məqsədləri ilə tanış olduğunu, öz hərəkətlərinin əhəmiyyətini dərk etdiyini, onları yerinə yetirmək hüququna malik olduğunu, bu Təklifin şərtləri ilə tam tanış olduğunu və qəbul etdiyini təsdiq edir.
Bu Təklif Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tənzimlənir.

5. Fondun rekvizitləri:
Azərbaycan Uşaq Fondu
VÖEN: 1400108621
Üzeyir Hacıbəyli küç. 40,
AZ1000, Bakı, Azərbaycan
Tel: (+994 12) 493 84 20

Bank rekvizitəri:
Azərbaycan Beynəlxalq Bankı ASC
Səbayıl filialı
İBAN:AZ66IBAZ40060019443286906209
M/H: AZ03NABZ01350100000000002944
Bankın kodu: 805056
Bankın VÖEN: 9900001881
S.W.I.F.T.BIK: IBAZAZ2X